*Şəhidlər unudulmur*

# Bahar ömrü ilə əsr yaşadı

Əsəd Ərzuman oğlu Zeynallı Seyidqışlaq kəndində 1999-cu ilin avqust ayının 12-də dünyaya göz açmışdı. Orta məktəbi başa vurduqdan sonra Qəbələ şəhər Peşə məktəbində təhsilini davam etdirmiş, 2017-ci ildə hərbi xidmətə çağırılmışdır. Hərbi xidmətini Bakı şəhərində keçirmişdir. 2020-ci ilin 29 sentyabrında könüllü olaraq döyüşlərdə iştirak etmək üçün cəbhəyə yollanmışdır. Ağdərə istiqamətində gedən döyüşlərdə oktyabrın 13-də şəhid olmuşdur. Əsəd onu tanıyanların qəlbində əbədi yaşayacaq!



Anası Vəfa xanım, atası Ərzuman bəy və qardaşı Asif Əsəd haqqında...

**Anası Vəfa xanım** - körpəliyindən düşüncə tərzi ilə seçilərdi mənim balam! Zəhmətkeş, ailəcanlı, qorxmaz idi. Hamı ilə dil tapan, tez dostlaşan, dost dediyi insana tez bağlanandı. Ürəyi o qədər təmiz idi ki... Çətin günündə tanıdığı dostlara çox güvənərdi.

Ailəsinə o qədər bağlı idi ki... Ailənin hər ehtiyacına köməkçi olardı. Öz obasını, doğulub boya-başa çatdığı kəndini çox sevərdi. Məktəb dostları, həmyaşıdları ilə tez-tez görüşər, öz problemlərini həll etməyə çalışardılar. Həmişə narahat idi. Xüsusilə, Vəndam qəsəbəsinin igid oğlu Polad Həşimovun iyul hadisələrində şəhid olması onu çox sarsıtmışdı. Onun qisasını almaq, şəhidlik zirvəsinədək yüksəlmək onun və dostlarının "həlli vacib" məsələləri, problemi idi. Bu haqda dəfələrlə söhbət açmışdı.

**Atası Ərzuman Zeynalov** - oğlum güvənc yerim idi. Qayğıyüklü idi Əsəd. Vətənpərvər idi, yurdsevər idi. Birinci Qarabağ müharibəsi zamanı torpaqlarımızın işğal olunması, baxmayaraq ki, Qarabağı heç görməmişdi, həmişə onu ağrıdırdı. Polad Həşimovun iyul hadisələri zamanı şəhid olması onu tamamilə dəyişdi, düşmənə nifrəti artdı, igid oğlumuzun qisasını almaq üçün hər an müharibədən söhbət açırdı, qisasın qiyamətə qalmayacağından danışırdı. Kəndin gəncləri ilə birgə sözləri-söhbətləri bu qanın yerdə qalmayacağı, torpaqlarımızın yağı tapdağından azad olunması idi.

Elə buna görə də, 2020-ci ilin sentyabrın 27-də başlanan əks-hücum, ermənilərə qarşı başlanan müharibə Əsədin "qisas almağın vaxtıdır, məqamıdır" düşüncəsini reallaşdırdı. O, döyüşlərdə iştirak etmək üçün səfərbərliyə könüllü getdi.

**Qardaşı Asifin dedikləri** - Müharibənin başlanması xəbərindən sonra hər ikimiz döyüşə getmək istəyirdik. Səfərbərlik xəbərini eşidən kimi Əsəd dedi ki, mən gedəcəyəm bu müharibəyə. Mən ona yaşca böyük olmağımdan istifadə edərək: -Sən balacasan məndən, mən gedəcəyəm, böyük mənəm, döyüş mənim yerimdir -dedim. Ancaq Əsəd: -Sənin iki körpə uşağın var, onların üzünə baxa bilmərəm sənə bir şey olarsa. Mən gedəcəyəm, ermənilərlə də lazımi səviyyədə döyüşəcəyəm. Səndən balaca olmağıma baxma, başımı uca edəcəyəm, ən uca zirvəyə qədər...

**Anası Vəfa xanım** - iyul hadisələrindən sonra Əsəd mənə dedi ki, oğlun şəhid olacaq, şəhid anası olacaqsan. Dedim: -Ay bala, sən nə danışırsan, ürəyimi parçalama! Həm də müharibə var ki... Nə şəhidlikdən danışırsan?! Əsəd: -İndi yoxdu, ancaq olacaq, ana, olacaq və mən də şəhid olana kimi döyüşəcəm.

Elə bil ürəyinə dammışdı balamın... Sağ-salamat göndərdim vətən təəssübkeşi oğlumu, çiyinlərdə gəldi kəndinə... Bütün kənd həmin gün yasa batmışdı... Hamı göz yaşını silə-silə onu qarşılayırdı. Toy məclisində iştirak edəcək camaat idi, axı balam bəylik kürsüsünə oturmamışdı... Hər kəs bayraqlarla bəzənmişdi, toy şarları, gül-çiçəklərlə deyil... Dünyam qaraldı, dağlar gəldi üstümə qara-qırmızı libasda sanki... Beynim tonqala dönmüşdü... Əsədim dediyini etdi - mən şəhid anası oldum... Ad şərəflidir. Ancaq elə yanğılıdır ki bu ad... Oğlumdan mənə Azərbaycan bayrağı, el sevgisi, bir də şərəfli ad qaldı...



Müharibədən bir neçə gün əvvəl xalça almaq istədim. Özü verdi pulunu və dedi ki, ay ana, sənin ki qızın yoxdu, nəyinə gərək bu xalça? Dedim: - toyxananı bəzəyəcəyəm... İndi o xalça ilə yasxanası bəzədilmişdi. Xalça üstündə asılan şəklin ətrafında günlərlə bir cüt göyərçin fırlandı... Yuxum ərşə çəkilmişdi, düşünməkdən dəli olurdum. Bəlkə balam sağdır, göyərçinlər mənə nə isə işarə üçündür?! Günlərlə xalçanın üstündə qoşa göyərçin fırlandı, şəkillə danışırdılar sanki...

Ancaq kəndimizin ikinci şəhidi Aqşinin cənazəsi kəndə gətirildikdən sonra göyərçinlərin qoşa uçmasının, xalçaya qonmasının səbəbini anladım. Axı Əsədlə Aqşin bir sinifdə oxumuşdu, həm də yaxın dost idilər, müharibəyə də birgə getmişdilər. İtkin düşən Aqşinin şəhidliyinin, iki dost şəhidin möhkəm dostluğunun anlamı imiş bu göyərçinlər... Ruhları şad olsun balalarımın...

Hər zaman gözlərim yaşla dolsa da, Əsədimin, eləcə də Aqşinimizin qalib bir ölkənin qələbəsində imzasının olması, general-mayor, Qəbələnin ilk Milli Qəhrəmanı Polad Həşimovun və yüzlərlə şəhidlərimizin qisasının alınmasında döyüş şücaəti göstərərək yüksək hörmət, həmçinin qəlblərdə əbədilik qazanması təsəlli olur... Ancaq Qələbə bayramı paradında elə axtarırdım ki, Əsədimi... Poladı, Aqşini... Vətən azad oldu, torpaqlarımız işğaldan azad olundu-bu məni ovudur... Əsədim isə hər an göz önümdədir və baxışları ilə deyir ki:

*Öz bahar ömrümlə əsr yaşadım,*
*Ordu şəhidlərsiz qalib olmaz ki!*
*Şəhid yaşı bitməz, qanı solmaz ki!*
*Vətənçün ölməzsən, Vətən olmaz ki!*

**BİBİXANIM.**

# Tərxis olunanlar və çağırışçılar

Səfərbərlik üzrə hərbi xidmətə çağırılmış vətəndaşların mərhələli tərxisi davam edir. Belə ki, Prezident İlham Əliyev dekabrın 25-də səfərbərlik üzrə hərbi xidmətdən tərxisetmə haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 28 sentyabr tarixli 2280 nömrəli Sərəncamı ilə hərbi xidmətə çağırılmış hərbi qulluqçular 2020-ci il dekabrın 25-dən 2021-ci il aprelin 15-dək mərhələli şəkildə səfərbərlik üzrə hərbi xidmətdən tərxis ediləcəklər.

Bununla yanaşı, Prezident İlham Əliyev dekabrın 22-də Azərbaycan Respublikası vətəndaşlarının 2021- ci il yanvarın 1-dən 30-dək müddətli hərbi xidmətə çağırılması haqqında Sərəncam imzalayıb.

2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi xidmətə çağırılırlar.

**«Qəbələ»**

# Qəhrəman qazi

Mənə desələr ki, Azərbaycanı bir cümlə ilə ifadə et: "Azərbaycan mərd, igid, qəlbi vətən sevgisi ilə döyünən oğulların yaşadığı doğma torpağımdır" deyərəm.

Azərbaycan torpağının hər qarışını canından keçmək bahasına da olsa, düşmən tapdağından azad edən oğulları yetişdirib. İllərdir biz rahat yaşayaq deyə, neçə ana övlad itirdi, neçə bala yetim qaldı... Neçə-neçə arzular yarımçıq qaldı.

İstər I Qarabağ Müharibəsində, istərsə də, II Qarabağ müharibəsində Azərbaycan minlərlə şəhid verdi, minlərlə qazilərimiz oldu.

Qəbələ rayon, Vəndam qəsəbəsi... II Qarabağ Müharibəsinin qəhrəman qazisi Paşayev Müşfiq Həbib oğlu...

Yoldaşları arasında "Paşa" ləqəbi ilə çağırılan Müşfiq, 1990-cı il 29 iyunda Qəbələ rayonun Vəndam qəsəbəsində anadan olub. Orta təhsilinə 1997-ci ildə E.Mehdiyev adına 1 saylı tam orta məktəbdə başlayıb. Qazimizin ən böyük arzusu hərbçi olmaq olub. Və bu arzunu gerçəkləşdirmək üçün ilk addımlarını atan Müşfiq Paşayev, 2008-ci ildə orta məktəbi bitirir və elə həmin il Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur.

Müşfiq aprel döyüşlərində və II Qarabağ Müharibəsində qəhrəmanlıqla vuruşaraq qazi adını qazanıb.

Müharibənin 30-cu günündə artilleriya rəisinin baş köməkçisi, Kapitan Müşfiq Paşayev Talış istiqamətində öz mövqeyini tutmaq üçün irəliləyərkən piyada əleyhinə minaya düşərək sol ayağının dizdən aşağı hissəsini itirmiş və müxtəlif bədən xəsarətləri almışdır.



Qazimiz Müşfiq Paşayev ailəlidir. Tanrının işinə baxın ki, Allah onu 5 yaşlı oğul övladına və ailəsinə bağışlayıb. 30 yaşlı qazimizin hərb sənətinə sevgisi bitməz-tükənməzdir. Onun ən böyük arzusu tezliklə sağalıb ən çox sevdiyi işi görmək, ordu sıralarına geri qayıtmaqdır. Allahdan qazimizə şəfalar diləyirik. Siz bizim fəxrimiz,qürur yerimizsiniz, kapitan Paşayev.

Tez bir zamanda sağlınıza qovuşub ordu sıralarına geri dönməyinizi arzulayırıq. Bu vətənin, bu xalqın siz və sizin kimi igidlərə ehtiyacı var, cənab kapitan!

**İlahə RƏHİMOVA,**
**Vəndam qəsəbəsi.**

# Mərd və qorxmaz oğul

Gözümün önündə böyümüşdü o. Elə bil anadan qorxmaz və mərd doğulmuşdu Adəm. Qonşu uşağı idi. Hələ ibtidai siniflərdə onun müəllimi də olmuşam. Olduqca çevik, cəld, mərd və iradəli uşaq idi. Hər bir işdə birinci olmağa çalışardı. Qarabağın azadlığı uğrunda gedən Vətən müharibəsində də Adəm birinci oldu. Cəbhə bölgəsinə göndərilən Adəm İkram oğlu ilk günlərdən özünün təkidi ilə döyüşlərə qatılır. O, cəbhəyə çox yüksək əhval-ruhiyyə ilə yollanır. Üzündəki gülüş, sevinc başqalarını da ruhlandırırdı. Onda sonsuz vətən sevgisi var idi . Mən Adəm İkram oğlu Heydərovun bölük komandiri olmuş Mahir Məmmədovla telefon əlaqəsi yaratdım . Mahir müəllim igid döyüşçü Adəm haqqında fərəhlə, ağızdolusu danışdı. Onun mərd və qorxmazlığından söhbət açdı. Dedi ki, Adəm haqqında nə qədər yazsan azdır.

Haqqında yazacağım şəhid Adəm Heydərov 26 mart 2000-ci ildə Bum qəsəbəsində, zəhmətkeş bir ailədə dünyaya göz açıb. Bum qəsəbə tam orta məktəbini bitirib, 2018-ci ildə ordu sıralarına çağırılıb. Hərbi xidmətini Daşkəsəndəki "N" saylı hərbi hissədə yerinə yetirib. Nümunəvi xidmətinə görə 2 dəfə komandanlıq tərəfindən valideynlərinə təşəkkür məktubları gəlib. Milli ordu sıralarında xidmət edən atıcı Adəm Heydərov həmişə nümunəvi xidməti ilə seçilib, yaxşı əsgər olub. 2020-ci ilin sentyabrın 27-də işğalçı, hiyləgər və mənfur ermənilərə qarşı mübarizəyə qalxan Azərbaycan ordusu ilk günlərdən uğurlar qazanır, erməni faşistlərinə qan uddurur, onları geri otuzdurur.



Adəm oktyabrın 13-də, döyüşlərin on yeddinci günü Ağdərə istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olur. O, Bumda "Yel suyu" övliyasında uyuyur... 44 günlük döyüşdə iştirak edən hər bir əsgər istər şəhid, istərsə qazi, istər iştirakçı, hər biri bir əfsanədir, bir tarixdir. Bundan sonra Azərbaycan xalqının hər bir fərdinin üzərinə düşən müqəddəs borc qazilərimizin və şəhidlərimizin qədrini bilmək, onları yad etmək, bu qəhrəmanlıq salnamələrini gələcək nəslə çatdırmaq və şəhidlərimizin yadigarlarına dövlət qayğısının təmin edilməsindən ibarətdir .

Minlərlə şəhidlərimizdən biri olan Bum qəsəbəsinin mərd oğlu Adəm Heydərovun adı həmişəlik olaraq ürəklərə hopub. O, Bumun 8 şəhidindən biridir. Şəhidlər ölməzdirlər. Onlar əbədiyyətə qovuşurlar. Şəhid eloğlumuzun misilsiz igidliyi möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən qiymətləndirilmiş o, "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur. Adəmin adını əbədiləşdirmək məqsədi ilə fəalların və gənclərin təşəbbüsü və köməkliyi sayəsində məhəllədə "Xatirə bulağı" inşa edilir.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**"Qızıl Qələm"media mükafatı laureatı, Qəbələ rayonu, Bum qəsəbəsi.**